**Zəminə Xınalı**

# QƏHRƏMAN HƏZİ

*(poema)*

Mənim əsərlərimin pəncərəsindən baxan oxucu əsl Vətənpərvər olmalıdır. Çünki mən əsərlərimi Vətən sevgisiylə yazıb-yaratmışam.

***Zəminə Xınalı***

Bakı - “Təknur” - 2015

Kitabın çapına öz köməyini əsirgəməyən Vətənimin xeyirxah qızı “Yeni Yurd” Sosial İnkişaf Birliyinin sədri **MAHİRƏ XANIM ƏSƏDOVAYA** təşəkkürümü bildiridəm.

***Müəllif***

Ön söz: ***Çingiz Abdullayev***
*“Şöhrət ordenli” xalq yazıçısı,*
*Azərbaycan Yazıçılar Birliyinin katibi*

Rəyçi: **Hüseynbala Mirələmov -**
*Millət vəkili, yazıçı-dramaturq, texnika*
*elmləri doktoru, professor*

Redaktor: **Tariyel Abbaslı -**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Prezident təqaüdçüsü*

**Zəminə Xınalı (Zəminə Məhəmməd qızı Bayramova). Qəhrəman Həzi *(poema).* Bakı - “Təknur” - 2015. 124 səh.**

“Qəhrəman Həzi” poeması hərbçi-şairə Zəminə Xınalının oxucularla növbəti görüşüdür. Poema iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları General-Mayoru Həzi Aslanovun əfsanəvi qəhrəmanlığına həsr olunmuşdur. Şairə poemada Həzinin uşaqlıq illərindən, yeniyetməliyindən və keçdiyi şərəfli doyüş yolundan bəhs edərək, dolğun bir əsər yaratmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Əsərdəki döyüş epizodlarının təsvirində tədqiqatçı Musa Bağırovun “Sərkərdənin taleyi” kitabından istifadə olunmuşdur.

**İSBN: 978-9952-445-00-9**

**© Z.Bayramova, 2015**

# ŞƏRƏFLI ÖMRÜN POETIK TƏRƏNNÜMÜ

Hörmətli oxucu!

Qarşında xalqımızın mərd ogullarından birinin qəhrəmanlıq tarixinə həsr olunmuş cox dəyərli bir əsər var.”Qəhrəman Həzi”.Tanınmış hərbçi şairə Zəminə Xınalının müəllifliyi ilə işıq üzü görən bu əsəri ön söz yazmaq üçün müəllif mənə təqdim edəndə cox sevindim. Onun qələminə,cəsarətinə və istedadına əhsən dedim.Mən onun qələminə də, cəsarətinə də yaxşı bələdəm.Çünki bir neçə il öncə onun başqa bir əsərinə -“Ali Baş Komandanım ” adlı pyesinə də ön söz yazmışdım. Və bilirəm ki, bu gün Zəminə Xınalı Azərbaycan ədəbi mühitndə qədərincə tanınan və sevilən bir şairədir.

Mən “Qəhrəman Həzi” poemasını oxuyarkən yadıma xalq şairi Məmməd Rahimin “Leninqrad göylirində” poeması düşdü.O, vaxt bu poema cox geniş yayıldı və oxucular tərəfindən sevildi.M.Rahimin poeması əsasən müəllifin lirik ricətlərlə əhatə olunmuş poetik duyğularının nəticəsi kimi şirin və axıcı bir dildə yazılımış bir əsər idi və o dövr üçün cox dəyərli idi..Z.Xınalının “Qəhrəman Həzi “ poeması isə epik-lirik səpkidə yazılmaqla epik-lirik poemanın bütün tələblərinə cavab verən mükəmməl bir tarixi – qəhrəmanlıq poemasıdır.

Müəllif Sovet İttifaqı Qəhrəmanı tank qoşunları general mayoru Həzi Aslanovun uşaqlıq illə-

rindən tutmuş qəhrəmanlıqla həlak olduğu dövrə qədərki şərəfli həyat yolunu axıcı və şirin poetik bir təkhiyə ilə təsvir etmişdir.

Poemada Həzinin uşaqlıq və yeniyetməlik illəri, bu illərdə çəkdiyi əzab- əziyyətlər,sonrakı dövrdə onun kursant həyatı və bu həyatın özəllikləri geniş şəkildə təsvir edilir. Əslində Zəminə Xınalı kursant həyatını,hərbi həyatı,bütün canından qanından keşirmiş bir adamdır.Bu həyat ona cox yaxındır. Onun həyat yoldaşı da hərbçi olub,övladları atalarını erkən itirsələr də, onlar da Həzi kimi kursant həyatı keçiriblər. İndi Azərbaycan ordusunun şərəfli zabitləridirlər. Bəlkə də Zəminə Xınalı bu əsəri yazmaqla öz hərbçi ogullarının kursant illərini Həzinin kursantlığı ilə tutuşdurmuşdur-özünü Həzinin anasının yerində görmüşdür. Poemada deyildiyi kimi Həzi hələ kursant olarkən qiş tətilinə getməyə hazırlaşır və birdən kursant yoldaşı Aslanın qəmgin dayandığını görür və ondan səbəbini soruşanda Aslan kövrəlir, ata-anasının vəfat etdiyini söyləyir. Həmin anda Həzi onu evlərinə dəvət edir. Onlar birlikdə Lənkərana yola düşürlər. Evinə çatanda Həzinin anasının onlara göstərdiyi qayğı və mehribançılıq,illərdir ki, belə isti ocağa,ana qayğısına ehtiyacı olan Aslana xoş təsir bağışlayır. Nuşu ana Aslana deyir:

*Oğlum, Aslan nə yaxşı*
*Sən bizim evə gəldin.*
*Tez-tez bizə gələrsən*
*İstəsə, könlün –qəlbin.*

*Mən də sənə bir ana,*
*Daha getmə heç yana.*
*Həzi kimi sən mənə,*
*Deyə bilərsən ana.*

Ümumiyyətlə qeyd edim ki,Z.Xınalı öz əsərlərində hərbi tarixi mövzulara daha cox üstünlük verir.Bu da bir az öncə dediyim kimi onun hərbçi olmağı ilə bağlıdır. Şairə bütün əsər boyu Həzinin qəhrəmanlığının müxtəlif məqamlarını təsvir edir. Doğrudur Həzi Aslanov haqqında bizim tanınmiş şairlərimiz S.Vurğunun, Məmməd Arazın, Mir Cəlalın, F.Qocanın şeirləri və xalq yazıçısı Hüseyn Abbaszadənin isə "General" romanı var.Təbiidir ki,"General" romanında müxtəlif döyüş cəbhələri istiqamətində müharibənın geniş epik təsviri,tank qoşunları qvardiya general mayoru H.Aslanovun əfsanəvi qəhrəmanlığı haqqında yazıçının romançılıq ənənələri uslubunda təqdimatı verilmişdir.

"Qəhrəman Həzi " poemasında isə Z.Xınalı Həzinin ayrı –ayrı cəbhələrdəki döyüş yollarını geniş epik lövhələrlə göstərir. Məsələn Belarusiya cəbhəsi boyu Berezina çayı, Lipetsk və Beqoml rayonu ərazisindəki çaylardan birini keçərkən Həzi Aslanovun təklifi əsasında keçirilmiş əməliyyat o vaxt cox dilə- ağıza düşmüşdü. Həmin epizodu Z. Xınalı belə təqdim edir:

*Yorulub düşsə də əldən əsgərlər,*
*Belarus meşəsin bəlgə seçdilər.*

*Burda partizanlar köməyə gəlib,*
*Dağılmış körpudən xəbər verdilər.*
*Yollar bağlansa da meşə içindən,*
*Gizlin yol olduğun xəbər verdilər.*
*Ancaq Aslanovun ağıllı fikri,*
*Hamını bir anlıq heyran eylədi.*
*Dedi bu çayda ki, batan bir tank var,*
*Birin də batirsaq cox yaxşı olar.*
*Çaydan keçmək üçün bu hamımıza,*
*Asan və sərfəli yaxşı yol olar.*
*Beləcə Aslanov bir yol düzəltdi,*
*Özü də onlarla irəli getdi.*
*Döyüş tapşırığı öz zamanınmda,*
*Uğurla, inamla yerinə yetdi.*

Əsərdə belə maraqlı epizodlar coxdur. Bilirik ki, hərbiçilər, xüsisilə də komandirlər cox tələbkar, ciddi və zəhmli olurlar.Z. Xınalı əsərdə Həzi Aslanovu nə qədər ciddi təsvir eləsə də, onun öz əsgərlərinə qarşı mehriban, səmimi olduğunu, onlara bir ata, böyük qardaş qayğısı ilə yanaşdığını,onların hətta ailə, ev-eşik problemləri ilə də maraqlandığını,əsgərlərinə hər cür köməklik göstərdiyini də tərənnüm etmişdir. Onun əsgər Şulinə göstərdiyi ehtiram və hörmət, onu şəxsən özünün müşaiyəti ilə xəstə anasının yanına aparması çox təsirli epizodlardandır. Bütün bunlar tarixi faktlar və arxiv materialları əsasında yazılsa da, bunlar hamısı əsl azərbaycanlı xarakteri, azərbaycanlı ürəyinin xeyirxah döyüntüləridir.

Mən özüm də hərbi həyata yaxın adamam. Əfqanıstan müharibəsinin iştirakçısı olduğumdan əsərlərimdə müharibə səhnələri təsvir eləmişəm. Ancaq bu səhnələri nəsrə nisbətən nəzmlə təsvir eləmək daha çətindir.Mən hesab edirəm ki, Zəminə Xınalı bu çətinliyin öhdəsindən məharətlə gəlir.

"Qəhrəman Həzi " şairənin daha bir iri həcmli tarixi- mənzum romanıdır. Mən sevinirəm ki, Z. Xınalı öz hərbi vətənpərvərlik şeirləri, hərbi marşları ( qeyd edim ki,o Azərbaycanda fəaliyyət göstərən Ali hərbi məktəblərin- H. Əliyev adına AAHM, AAHDM, AAHTM-nin və bir sira hərbi təmayüllü məktəblərin hərbi marşlarının müəllifidir) ilə Azərbaycan ədəbiyyatında hərbi poeziyanın, hərbi –vətənpərvərlik poeziyasının fundamental əsasını qoymuşdur. Mən onun "Ali Baş Komandanım " kitabına da ön söz yazarkən Azərbaycan Yazıçılar Birliyinin katibi kimi söz vermişdım ki, ona Azərbaycanın fəxri adlarından birinin verilməsinəköməklik edəcəyəm.Mən bu fikrin üstündə yenə də qalır və söz verirəm ki, ona bu sahədə yardımçı olacağam.

Gənc nəslin hərbi –vətənpərvərlik ruhunda yetişməsində böyük əməyi olan Zəminə Xınalıni isə bu yeni əsəri münasibətilə təbrik edirəm. Əminəm ki, "Qəhrəman Həzi" poeması geniş oxucu kütləsinin rəğbətini qazanacaqdır.

***Çingiz Abdullayev***
*"Şöhrət ordenli" xalq yazıçısı,*
*Azərbaycan Yazıçılar Birliyinin katibi*



1910-un
22 iyun günü
Həzi adlı bir körpə
Lənkəran şəhərində
dünyaya göz açıbdır.
Bu gözəl, bu işıqlı
Obada boy atıbdır.
7 yaşı olanda,
Orta məktəbə getmiş.
Şagirdlər arasında o,
Əla oxuyan imiş.
Onu müəllimlərin
Hər biri çox sevərmiş.
13 yaşı olanda
Balaca Həzi vaxtsız
Atasını itirdi.
Çətin anlarda Həzi
Əzab-əziyyət çəkdi.
Azyaşlı uşaq kimi
Kərpic zavodunda o
Adi fəhlə işlədi.
Halal zəhməti ilə
Evə qazanc gətirdi.
14 yaşında ikən,
Cənubi Qafqazdakı
Hərbi hazırlıq adlı
Məktəbə daxil olmuş.

Deyirlər kursant vaxtı
Həzi imtahanlardan
Əla qiymət alıbmış.
Ona görə komandir
Onu evə buraxmış.
Yola düşdüyü anda
Kursant dostu Aslanı
Qəmgin görür sinifdə.
Hər kəs öz evlərinə
Gedəcəkdi bu həftə.
Həzi diqqətlə baxır
Aslan sanki ağlayır,
Soruşur ki, nə üçün
Belə qaş-qabaqlısan?
Axı imtahandan sən
Yaxşı qiymət almısan.
Niyə evə getmirsən?
Aslan söz tapa bilmir.
Həzi ondan soruşur:
Qardaş, niyə dinmirsən?
Dərdin nədir, söylə sən
Mənə niyə demirsən?
Aslan deyir: ay Həzi,
Sən heç nə bilməyirsən.
Mənim atam-anam yox.
Bu tənhalıq, bu təklik
Sinəmdə olubdur ox,
Dostlarım olsa da çox.





Özüm-özümə çoxlu
Sualları verirəm.
Qış tətili olsa da
Gedəsi bir yerim yox.
Həzi o an elə bil,
Vulkan kimi püskürür,
Gözləri dolur onun
Ağlayaraq hönkürür.
Aslanın həyatını
Keçmişini o görür.
Silib gözün yaşını
Gülümsəyir, o gülür.
Aslan, mənim qardaşım,
Dostum, həm silahdaşım.
Mən də 13 yaşımda
Atamı itirmişəm.
Bilirsənmi nə qədər
Əziyyətlər çəkmişəm?!
Ancaq onu bilmişəm
Anam bizə həyandır.
Ömrüm əzablı keçib
Bu Tanrıya əyandır.
Məni dinlə, ay Aslan,
Özünü tənha sanma.
Hazırlaş bizə gedək,
Daha durma, dayanma,
Mənim anam dünəndən
Yolumu gözləyirdi.



Səninlə getməyimi
Anam heç bilməyirdi.
Bizim evə getməyin
Özü bayram olacaq
Anam çox şad olacaq.
Qohum-qardaş hamısı
Yəqin bizdə olacaq.
Balaca qardaş- bacım.
Sevinib oynayacaq.
Onda görəcəksən ki,
Mənim qoca babam da,
Mənim qoca anam da,
Qohumum- qardaşım da
Sənə qucaq açacaq.
Onu bilirəm anam
Yaxşı süfrə açacaq.
Sənin də qəmli könlün
Sevinib şad olacaq.
Sözün bitirən kimi
Aslan da razı olur.
Həzi ilə birlikdə
Lənkəranın Gərmətük
Kəndinə yola düşür.
Kəndə çatanda onlar
Nuşu ana Həzini
Öpüb bağrına basdı.
Aslanı görən kimi
Ana xoş təbəssümlə



Aslana qucaq açdı.
Dedi: - Həzi bu oğlan
Sənə əsgər yoldaşdı.
Tanrıma çox şükürlər
Həziyə Aslan özü
Səngərlərdə, döyüşdə
Vətənsevər qardaşdı.
Hərbi geyimləri də
Gör necə də oxşardı.
Sizə qurbanam oğul,
Gəlişiniz mənimçün
Sanki bir dünyalardır.
Ananın xoş sözündən
Aslan xeyli şad olur
Bu kəndə gəlməyilə
Həzi Aslanova o,
Çox-çox minnətdar olur.
İllərdir ki, Aslanın
Belə isti ocağa
Ehtiyacı var idi.
Ananın bu qayğısı
Sanki dünyalar idi.
Qışın sərt soyuğunda
Samovardan çay süzən
Ana limon doğrayır.
O qədər sevinirdi ki,
Sevincdən ağlayırdı.
İsti təndir çörəyi

Əli ilə doğrayırdı.
Ləvəngini bişirib,
Plovu dəmləyirdi.
Həzi ilə Aslanla
Ana söhbət eyləyir.
Nuşu ana oğluyla
Sevinib fəxr eyləyir.
Aslanın tənhalığı
Qəlbini çox göynədir.
Fikir, xəyal içində
Ana qəlbi kövrəlir
Aslanın taleyinə
Ürəyi hey sızlayır.
Üzündən nur tökülən
Ananın gözü dolur.
Oğlum, Aslan nə yaxşı
Sən bizim evə gəldin.
Tez-tez gələrsən bizə
İstəsə, könlün-qəlbin.
Mən də sənə bir ana
Daha getmə heç yana.
Həzi kimi sən mənə
Deyə bilərsən ana.
Mənim kimi analar
Sizlərə qurban olsun.







***

Dinlə əziz oxucum!
O zamanlar hərbiçi
Olmaq, oxumaq çətin.
Bu hərbi məktəblərdə
Oxuyan oğul mətin.
İradəli, dözümlü
Hər bir kursant ilk öncə
Savadlı olmalıydı.
Həzi şərəfli yolu
Hərb peşəsin seçəndə
Ana dilindən başqa
Rus dilin bilməliydi.
Uzun gecələrdə o
Çoxlu kitab oxumuş.
Xarici dillərə də
Beləcə nail olmuş.
Elə ona görə də
Bu kəndin insanları
Həziyə böyük hörmət,
Məhəbbət bəsləmişlər.
Hərbi mundir Həziyə
Yamanca yaraşırmış.
Qızlar onun ardınca
Oğrun-oğrun baxırmış.
Nuşu ana oğluna
Uğurlu yol, firavan.
Xoşbəxtlik arzulamış

20 yaşında ikən
Leninqrad Süvari
Məktəbində oxumuş
22 yaşında o,
Rusiyanın ən qədim
Kotovski adına
Bessarabiya Süvari
Diviziyasında vzvod
Komandiri işləmiş.

***

1939-da
Mennerheym uğrunda
Həzinin qələbəsi
Sevindirdi hər kəsi.
Nuşu ana o, anda
Sevinib, şad olmuşdu.
Ana səsi, nəfəsi
Necə də müqəddəsdir
Anam deyərdi, oğlum,
«Haqqım sənə halaldır,
Südüm sənə halaldır».
Sənin hər bir uğurun,
Xoş xəbərli haraydır.
Bu cahana, bu elə
Bir qurulu saraydır.
Nuşu ana oğlunu
Görmürdü neçə aydır.





Həzi çox uzaqdadır
Ana yaman kövrəlib
Gözləri yollardadır.
Ulu tanrı hər zaman
Onlara dayaq olmuş.
Ana bir gün ürəkdən
Sevinib şad olmuşdu.
Qoca poçtalyon o gün
Ona məktub vermişdi.
Məktubun sətirləri
Sanki Nuşu anaya
Dünyanı bəxş etmişdi.
Ana oğlu Həziylə
Hər zaman fəxr edirdi.
Həzi hərb peşəsini
Canından çox sevirdi.
Əsgərlərə hər zaman
Hərbi təlim keçirdi.
Sanki müharibənin
Başlanmasın bilirdi.
Bəli, əziz oxucum!
Böyük Vətən savaşı
1941-də
Qızmar yay fəsilində
Hitler Almaniyasının
Hiyləgər fitnəsindən
Qəfil savaş başladı,
Hərbi komissarlıqlar,

Atalar, həm analar
İgid nər oğulları
Döyüşlərə yolladı.
Bu qanlı savaşlarda
Həzi önə atıldı.
Moskva ətrafında
Döyüşlərə başladı.
Cəngavər Vətən oğlu
Düşmənin səddin yardı,
Onun bu uğurunu
Zabitlərin hər biri,
Komandan alqışladı.
Qışın sərt soyuğunda
Dekabr günlərində
Qəhrəmanlıq şücaət
Göstərir igid Həzi.
Elə ona görə də
«Qırmızı Ulduz» ilə
Təltif olunur Həzi.
Qanlı savaş zamanı
Qəhrəman Vətən oğlu
Gecə -gündüz döyüşür.
Hərbin hər bir sirrini
Öz-özüylə bölüşür.
Yuxu nədir bilməyir.
Sübh tezdən oyanır.
Düşmənlərin bağrını
İgidliyilə yarır.





Əlahiddə tankçılar
Tank alayıyla birgə,
Xarkovda düşmənləri
Məhv eyləyib, odlayır.
Ordan keçib Krıma,
Kuban, Stavropola
Krasnodar tərəfdən
Don çayı sahilində
Əzmlə vuruşdu o.

***

1942-də
Stalinqrad uğrunda
Gərgin döyüş gedirdi.
Oddan-alovdan keçən
Cəsur Həzi Aslanov
«Qəhrəmanlıq adına
22 dekabrda
Özü layiq görüldü.

***

Müharibə dövründə
Sovetlər Birliyində
Bakı Ali Birləşmiş
Komandanlıq məktəbi,
Kursantlar arasında
Həzi Aslanov adın
İftixarla çəkirmiş.

Sıra baxışlarında,
Dərs imtahanlarında,
Döyüş təlimlərində,
Yarışlarda hər zaman
İgid, mərd Aslanovun
Komandirlər, kursantlar
Adıyla fəxr edirmiş.

Şəxsi heyət hər zaman
Aslanovun adını
İftixarla çağırmış.
Bu adət, bu ənənə
İllər boyu yaşamış.
Bu olmuş əhvalatı
Polkovnik Qənizadə
Tədbirlərin birində
Hərb Tarix Muzeyində
İftixarla danışdı.

Həzinin həyat yolu,
Həzinin ömür yolu,
Həzinin döyüş yolu
Hər kəsə örnək olmuş.
Hərbi məktəbləri o,
Şərəfli zabit kimi
Əla qiymətlər ilə
Vaxtında bitirmişdi.
Gənc leytenant Həzinin
Uğuruna anası





Ürəkdən sevinmişdi.
Həzinin xoş sorağın
Eşidən Nuşu ana
Onun hər qələbəsinə
Əhsən, alqış demişdi.

***

- Sevincdən ananın könül nəğməsi
Uçdu göy üzünə qanad çalaraq.
Ana alqışından ucalan Həzi
Vətən sevgisindən ilham alırdı.
Amansız döyüşdə, qanlı döyüşdə
Düşmən üzərinə əzmlə getdi.
Anadan qəhrəman doğulub sanki
Doğma Vətənimin qəhrəman oğlu
Günəşin nurundan doğulub sanki
Şanlı diyarımın qəhrəman oğlu.
Poladdan, barıtdan yoğrulub sanki
Odlar diyarının qəhrəman oğlu.
Qanlı döyüşlərin alovlarından
Zirehli tank ilə keçəndə Həzi.
Poladdan yoğrulub, deyirlər ona
Düşməni ot kimi biçəndə Həzi.

***

Ananın ürəyi, fikri, xəyalı
Dolanır Həzinin başının üstə.
Ana duasını tanrı eşidir,
Güllələr şığıyıb yanından keçir.



Ana alqışıyla cəbhəyə gedən
Həzini Tanrının özü qoruyur.
Mənfur düşmənləri məhv eyləyərək
Hitlerə döyüşdə meydan oxuyur.
Odlar diyarında doğulduğundan
Sinəsi od olub, qolları polad.
Deyirlər insana igidlik bir an
Tanrının hökmüylə verilir ancaq.
Həziyə qəhrəman döyüşçü adı-
Tanrı vergisiylə, xalq sevgisiylə
Böyük məhəbbətlə verildi, bu ad.
Bu tanrı alqışı,
Tanrı sevgisi,
Bu uca Allahın,
Ulu sevgisi -
Həzinin qanına hopmuşdu ancaq
Bitib-tükənməyən Vətən sevgisi…
Yaradıb beləcə Ulu Yaradan,
Zahirən sakitdir, sadə bir insan.
Ancaq döyüşlərdə sərkərdə Həzi
Nə qədər cəsurmuş,
Nə qədər igid.
Nə qədər mərd imiş,
Sərkərdə Həzi.
Onun amalıydı «Yalnız irəli»!
Döyüşdə düşməni məğlub etməli.
Əmr edib deyərmiş



- İrəli, əsgərlər, yalnız irəli!
Mənim əsgərlərim öndə getməli.
Soyuq səngərlərdə o,
Gecə-gündüz
Səngərdən-səngərə
Gəzir, dolanır.
Düşmənin bağrını
Qəhrəman Həzi
Vətən sevgisiylə
Mərdliklə yarır.
Qışın şaxtasına,
Sərt ayazına
Dözürük,
Dözəcəyik.
Düşmənin başını
Hamımız bir gün
Birlikdə əzəcəyik.
Hər döyüş zamanı
Əmr edir Həzi.
Əmrə müntəzirdir
Əsgərlər özü.
Mərdlik, mətanət var,
Əsgərdə dözüm.
Alman faşistinə
Yaraşır ölüm!
Həzinin bir əmri,



Əmri budur ki,
Düşməni məhv edin,
Düşməni əzin.
Vətən torpağında
Xoşbəxt, bəxtəvər,
Fidan balalarla
Firavan gəzin.
Vətən uğrunda
Qanlı döyüşdə
Əgər öləriksə
Bu hədər deyil.
Keçsə də əsrlər
Keçsə də illər
Bizi yaşadacaq
Gələn nəsillər.
Vətən sevgisiylə
Sevər, seçilər.
Zamanın köksündə
İgid oğullar.
Tarix yaddaşında
Hər an sevilər.

***

Komandanın əmri ilə,
Döyüşlərdən keçən Həzi
Zirehli Tank qoşunu
Hərbi Akademiyaya



Kursa gedir təcili.
Gedir Vətən oğulu
Gedir döyüş zamanı
Hərbi Akademiyada
Aldığı təcrübəylə
Məhv etməyə almanı.
Bəli, belə də olur
Fövqəladə kursdan o,
Toplayır çox təcrübə
Düşmənləri tezliklə
Salır təlaş-təəccübə.

***

1944-ün
mart ayının 13-ü
Komandanın əmrilə
İgid Həzi Aslanov
«General-mayor» olur.
Bütün tank qoşunların
Həzi rəhbəri olur.
Düşmənləri o anda
Məğlub edir, məhv edir.
Xalqımız Həzi ilə
Öyünür, fəxr eyləyir.
Qışın sərt soyuğunda
Yayın qızmarında da

Mənfur düşmənlər ilə,
Həzi döyüşür yenə
Tank alayı ilə o,
Belarusdan Minskə
Vleyka şəhərinə,
Ukrayna və Vilnusun
Azad olunmasında
Qəhrəmanrlıq göstərən
Aslanovun alayı
«Qırmızı Bayraq» ilə
Ordenlə təltif oldu.
Elə həmin gündə də
«Suvorov»ordeninə
Həzi layiq görülür.
Həzi təltif olunur.
Bütün komandirlərdən
Həzi tez-tez fərqlənir,
Yeni bir əməliyyatın
Təməlin qoyur Həzi.
«Baqration» Həzinin
Yeni əməliyyatıydı.
Yeni bir planıydı.
Bu gərgin döyüş özü
Düşmənin süqutuydu.
Minski düşmənlərdən
Həzi azad eyləyir.





Borisov şəhərini
Düşməndən təmizləyir.
Şəhərin sakinləri
Həziyə əhsən deyir.
Uşaq-böyük, cavanlar
Həzini çox sevirlər.
Azərbaycan oğluyla
Hər biri fəxr edirlər.
Həzinin əsgərləri
Hər an öndə gedirlər
Komandiri hər biri
Sevib, hörmət edirlər.
Bax beləcə düşməni
Qırıb məhv eyləyirlər.
İnsanları zülmdən
Tez azad eyləyirlər.
Cəbhələrdən cəbhəyə
Qələbəyə gedirlər.
İ- Pribaltika
Cəbhəsini keçirlər.
Qalib olacağına
Əsgərlər and içirlər.
Latviyada qaniçən
Düşmənləri məhv edib.
Riqanı mənfurlardan
Tezliklə azad edir.

Riqa ilə yanaşı
Yelqavanı həmin gün
Həzinin komandası
Düşməndən azad edir.
Budur Həzi od oğlu,
Od ələyir düşmənin
Başına yerdən-göydən
Qanlı savaşlarda o,
Qorxmayır heç nədən.
Onu bir az sarsıdır,
Döyüş yoldaşlarından
Döyüş meydanlarında
Öldürülmüş əsgərlər
Bir an xəyala dalan
Həzi özü-özünə
Suallar verir hərdən.
Düşmən niyə bu qədər
Qəddar imiş de nədən?
O, andaca and içir.
Qisas alacağam mən.
Şanlı qələbəni də
Vətənimə, xalqıma
Belə yayacağam mən





***

Bu gərgin döyüşlərdə
Yüzlərlə Azərbaycan
Zabit, əsgəri vardı.
Onlar Vətən uğrunda
İnsanların gözündə
Göylər qədər ucaldı.
Vətən müharibəsində
Hərbi nazir müavini
general Şıxlinski
Vətən sipəri olan
Ordu haqda hər zaman
Müdrik kəlam söyləmiş;
- «Vətənin oğulları
Xeyirli yerlər tutsun.
Vətənin torpağını
Bəbəyi tək qorusun.
Həzi kimi cəngavər,
İgid, mətin oğullar
Ordu sıralarında
Hər kəsə örnək olsun»
Yaxşı, sağlam qüvvələr
Orduya daxil olsun.
Yüksək rütbəli zabit
Generallar çox olsun.
Zaman-zaman onları

Dövran özü yetirsin.
Həzi kimi qəhrəman,
İgid mərd oğlullar da,
Xalqımıza xoş müjdə
Qələbəni yetirsin…
Həzinin döyüşdəki
şücaəti, şöhrəti,
Vətənə məhəbbəti,
Düşmənlərə nifrəti
Gün kimi aydın idi…
Onun qardaşları da,
Qoca anaları da
Həzidən çox nigaran,
Çox narahat idilər.

Bir gün səhər,
Sübh tezdən
Bacarıqlı komandir
Həzidən doğmaları
Şad xəbərlər eşidir.
Nuşu ana fərəhdən
Şad olub, çox sevinir.
Ana oğulu üçün
Çoxlu dualar edir.





***

Torpağı havaya
sovurur mərmi
Yandırıb, kül edir,
qovurur mərmi.
Havada təyyarə,
sularda gəmi
Alışıb yanırdı,
döyüş zamanı.
Həmin döyüşlərdə
qəhrəman Həzi
qardaş itkisilə
üz-üzə gəldi.
Çatdı qara xəbər Nuşu anaya
Naləsi yerləri, göyü titrətdi.
Oğulu döyüşdə
olan anaya
dözülməz ağrıdı
acı xəbərdi.
Sarsıda bilmədi
bu acı xəbər
Qəhrəman Həzini,
igid Həzini.
Həmin gün düşmənin
neçə tankını
neçə maşınını

məhv etdi Həzi.
Yazdı bu uğurun
nəticəsini
Qızıl hərflərlə
qəzet, jurnallar.
Həzini tanıyan,
tanımayan da
Həzinin adına
alqış dedilər.
- Alqış belə oğul
böyüdən xalqa.
Adı dillər əzbəridir
Bizim qəhrəman Həzidir.
Billur xasiyyətli
saf ürəklidir.
Polad iradəli
dəyanətlidir.
Orduda xidməti
öz hünəridir.
Çünki Azərbaycanlı,
o, azəridir.

***

Dünyaya hökmran
olmaq istəyən
Alman faşistləri
qəzəblənərək





Hücuma keçirdi,
qanlar içirdi.
Günahsız insanı
ot tək biçirdi.
Hitlerin könlündən
neftin diyarı
Bakının işğalı
tez-tez keçirdi.
Xəyal dünyasında
nefti ovcuyla
Şirin yuxularda
sanki içirdi.
Əgər Stalinqrad
təslim olsaydı.
Gərək ondan sonra
Alına Bakı.
Bu plan, bu hiylə
baş tutmaz axı
Düşmən arzusuna
heç çatmaz axı.
İgid oğulların
olduğu yerdə…
Gecə də, gündüz də
döyüşdü onlar.
Cəbhədə can qoydu
neçə oğullar.



***

Alman faşist ordusunun
zabitləri
Avtomatın qundağıyla
Əsir düşən əsgərləri
döyürdülər.
söyürdülər.
Zülmlərə dözə-dözə
Qar üstündə ayaqyalın
gəzə-gəzə
Hərbi sirri vermədilər.
Həzi haqda almanlara
bircə kəlmə
demədilər.
Susuzluqdan
yansalar da,
Şaxta-qarda
donsalar da,
Lap acından
ölsələr də,
İşgəncələr
versələr də,
Parça-parça,
tikə-tikə
bölsələr də,



Qəddar düşmən
ordusuna
keçmədilər.
Şanlı Sovet əsgərləri.

***

Həzinin əsgəri, zabitləri də
Düşmən arzusunu
gözdə qoydular.
Qana-qan dedilər, qanlı savaşda
Düşmənin gözünü belə oydular.
Düşmənə çinahdan
zərbə endirmək
Həzinin ən böyük
məqsədi idi.
Döyüş tapşırığı
verəndə onun
Zirəklik, mətinlik
tələbi idi.

***

Partizan Mişenko
Datso, Qalkini
Faşistlər o gecə
edam etdilər.

Bratski kəndini
oda qalayıb
Cəsədlər üstündən
tankla keçdilər.
O qədər rəhmsiz
qəddar idilər
Körpə uşaqların
qanın içdilər.
Amansız düşmənlər,
qansız qatillər
Qadını- qocanı
ot tək biçdilər.
Xəbəri Aslanov
Aslanovçular,
Eşidir sarsılır
ancaq ki, onlar
Qisas qiyamətə
qalmaz deyirlər.
Gedir qərbə doğru
Aslanovçular
Yerləri- göyləri
titrədir tanklar.
Dağıdıb hər yeri
qansız almanlar
Elə bil dünyaya
zülmət çökürdü.





Düşmən caynağından
torpağa- daşa
Yağış əvəzinə
qan süzülürdü.
Günahsız insanlar
alov içində
Qışqıra- qışqıra
öldürülürdü.
Vulkan tək püskürür
od-alov, atəş
Kənd və şəhərləri
toz bürüyürdü.
Bu zaman sürətlə
ötən tanklardan,
Öndə gedənlərdən
biri dayanır.
Dağılmış, uçulmuş
evin önündə.
Leytenant Borikov
xaraba evin
yanında dayanır
taqətsiz halda...
Dünya gözlərində
qaralır sanki
Huşunu itirir
həmin o anda.

General Aslanov
soruşdu ondan
Nə olub, burada,
niyə dayandın?
Kimi axtarırsan,
Kimi gəzirsən?
Leytenant başını
aşağı salıb.
Qüssəylə, kədərlə
xəyala dalıb,
Dərindən ah çəkib,
söylədi ki o;
-Bu ev bizimkidir,
yanıb kül olub.
Görəsən hardadır
atamla- anam
Deyəsən onlar da
ölübdür, Aman!
Bu anda insanlar
axışıb gəlir.
Olmuş əhvalatı
ona söyləyir.
Atanı almanlar
döyüb öldürdü.
Ananın gözlərin
çıxartdı onlar.





Anan tək qalmışdı
deyə qonşular
Apararaq evə
baxırlar ona.
Bu anda balaca
bir qız uşağı
Ananın qolundan
tutub gətirir.
Oxucum! Bu səhnə
yaman ağırdır.
Kor olmuş ananın
qarşısında o
Diz çöküb ağlayır
fəryad qoparır.
Ananı Borikov
bərk qucaqlayır.
Uca bir səs ilə,
həyəcan ilə
Anam, anam deyə
birdən çağırır.
Ana, gözəl anam!
Nə olub sənə,
Anacan nə olub
o gözlərinə?!
Ana qucaqlayıb
öpür oğlunu

Oğlunun qolunda
can verir, ölür.
Həzi yaxınlaşır
deyir Borikov
Ananı dəfn elə
sonra gələrsən.

“Vilisi” saxladım
tankla gedərəm.
Dəfn üçün mən sənə
kömək edərəm.

Borikov Həziyə
təşəkkür edir.
Həzi dəstəsiylə
döyüşə gedir...
Kəndin sakinləri
yığışıb burda
Həzidən danışır
öyünür onlar.
Qəhrəman, xeyirxah
Vətən oğluna
Əhsən deyirdilər
sonsuz alqışlar,
Təşəkkür edirdi
sadə insanlar.





***

Cəbhədə döyüşən oğulllar üçün
Analar yun əlcək, corab toxuyur.
«Qara kağız»ları alanda onlar
Hitlerə min lənət, lənət oxuyur.

Hitlerin iştahı elə artmışdı
Dünyanın özünə meydan oxuyur.
Şərab badəsini süzdükcə süzür
Qəddar simasından al-qan qoxuyur.

Əsir götürmüşdü qız-gəlinləri
Üstünə hürürdü «Nemes» itləri.
Soyuqdan, sazaqdan dizləri əsir
Saçından asırdı, qız-gəlinləri.

Yəhudi millətin qənimi Hitler
Güllə-baran etdi, onları bir-bir.
Hitlerdi oxuyur, dünyaya meydan
Zalımın könlünə dolubdur şeytan.

Cavana, qocaya, körpə uşağa
Rəhmi də gəlməyir, zalım Hitlerin.
Könlündən Moskva, Bakı keçirdi
Hökmran sayırdı özün hər yerdə.

Tamahı o qədər böyük idi ki,
Dünyanı fəth etmək istəyirdi o.
Xəritə üstünə barmağın qoyub
Bakının neftini göstərirdi o.

Uzun gecələri yata bilməyən,
Körpələr yuxuda çörək deyirdi.
Acından öləndə neçə min adam
Hitleri insanlar lənətləyirdi.

Meydanda tək qalan zalım Hitlerin
Çıxdı qarşısına igidlər-ərlər.
Ağlına heç belə gətirmirdi ki,
Bir vaxt məğlub olub, can verib, inlər.

Bəşər tarixinin qənimi Hitler
Əmr etdi: bu gündən dağılsın hər yer
Sanki qaniçəndi, o, mənfur düşmən
Cəlladdı, qatildi Adolf Hitler.

Gözünü ovdular zalım düşmənin,
Geriyə qaçmağa məcbur oldu o.
Əjdaha sanırdı, başı əzildi,
Ayaqlar altında qaldı, soldu o.





Nə qədər insanlar öldü-qırıldı
Dünyanın üzünü buludlar aldı.
Uşaqlar atasız- anasız qaldı
Bu zalım Hitlerin əməllərindən.

Müharibə qan qoxusu,
Müharibə faciədir.
Müharibə həm qaranlıq
Həm də zülmət bir gecədir.

Zülmətlərdən zülm çəkdi insanlar
Zülmətlərdən ölüm çəkdi insanlar
Nəyə gərək bu savaşlar, davalar
Sülhə gəlin, sülhə gəlin insanlar.

Söylədikcə bu kəlməni analar,
Dillərində sülh nəğməsi oxunar.
Torpaq üstə axmayaydı
al qanlar,
Savaşlardan acı çəkdi analar.

***

Döyüşün ən qızğın
gərgin vaxtında
Tuladan keçirdi
qəhrəman Həzi.

Gördü ki, yığışıb
çoxlu insanlar.
Orda ağlayırdı
körpə uşaqlar
Maşını saxladıb
soruşdu ki, o
Nə olub, uşaqlar
niyə ağlayır?
Dedilər bu körpə
gül balaların
Atası- anası partizan imiş.
Faşistlər onların
atalarını
Meşədə doğrayıb
itlərə atmış.
Anası Qalina
fəal partizan
zəhmətkeş,fədakar,
bir qadın imiş.
Onu da o qədər
döymüşdü onlar.
Qolları qırılmış
şikəst gəzirdi.
Gizlin yollar ilə döyüşçülərə
düşmən həmləsini
hər vaxt deyirdi.





Təəssüf olsun ki,
düşmənlər onu
Səngərdən keçəndə
nişana aldı,
Beləcə yetişdi,
ömrünün sonu.
Onlara nənəsi
Tanya baxırdı.
Çox əzab çəkirdi
hey ağlayırdı.
Körpə uşaqlara
yaxşı baxırdı.
Sübh tezdən o, qoca
qadın da öldü,
Bu evin çırağı
əbədi söndü.
Həzi uşaqların
baxıb üzünə
Söylədi:- Uşaqlar
ağlamayın siz!
Bu kənddə tək- tənha
yaşamayın siz.
Sizi aparacam
Uşaq evinə
Istərəm könlünüz
hər an sevinə.

Sizə arxa olub,
dayaq olacam.
Mən sizi heç zaman
unutmayacam.

Beləcə onları aparır Həzi.
Onları zülmdən qoparır  Həzi.
Uşaq evinin müəllimlərinə
Körpə uşaqları tapşırır  Həzi.

Zamanın çarxına düşən uşaqlar,
Biri ölürsə də, biri sağ qalır.
Həzi dayaq olur, bu balaca qız
Böyüyür alimlik adını alır.

Bəli xeyirxahdır, Həzi Aslanov
Yetim uşaqlara çox dayaq olub.
Xalqımın cəngavər, igid, mərd oğlu,
Vətən keşiyində bir mayak olub.

***

Qələbə uğrunda igid oğullar,
Canından, qanından
keçəndə onlar.
Amalı bir oldu,
Vətən uğrunda





Düşmənlə üz-üzə vuruşdu onlar.
Düşməni ot kimi biçən oğullar.
Şanlı qələbəyə qovuşdu onlar.
Şəxsi rəşadəti, sərkərdəliyi
Həzini ucadan,
uca etmişdi.
Doğma Vətənini
Qəhrəman Həzi
Ürəkdən sevərək səcdə etmişdi.
Vətən harayına öndə getmişdi.

***

Həzinin keçdiyi
ömür yolları
Vətəndən başlayıb,
Vətəndə bitib.
Qəhrəman, hünərvər,
cəngavər oğlu -
Həzini xalqıma
Tanrı yetirib.

***

Vileyka şəhəri
faşistlər üçün
Sanki ələ keçmiş
xəzinə idi.

Həzi Aslanovun
Tank qoşunları
Mənfur düşmənlərin
qəsdinə idi.
Keçərək Vileyka
çayını onlar
Düşməndən şəhəri
geri aldılar.
Zirehli tanklardan
atəş açaraq,
Düşmən üzərində
zəfər çaldılar.
Yeni-yeni zəfərlərlə
irəli!
İrəli gedirdi Aslanovçular.
Qışın soyuğunda
sərt ayazında
Uğurlar qazandı
tankçı-topçular.
Hitlerçi alayın
qoşunlarında
Nə taqət, nə də ki,
güc qalmamışdı.
Döyüşdən, səngərdən
Ön cəbhələrdən
Hitlerin özü də
şad qalmamışdı.





***

Matveyevdən Kurqanadək
Uğurluydu Həzi üçün.
Stalinqrad uğrunda da
Söyləmişdi: -əzin-keçin.
Aslanovun hər bir əmri
-Əsgərlərə xoş olurdu.
Düşmənlərin fəndi-feli
Alınmırdı boş olurdu.

Tanklardan açılan
yaylım atəşi.
Düşməni yandırıb
oda qaladı.
Qorxuya düşəndə
düşmənlər qaçdı.
Meydanda qalanlar
yaralılardı.
Yaralı olsa da
əsir əsgərlər
Düşmən olsalar da
insan idilər.
Həzinin əmrilə
düşərgələrdə
Əsirlər doyunca
yemək yedilər.



Bax budur insanlıq,
budur yaxşılıq.
Dostuna dost idi,
düşmənə düşmən,
Etməzdi heç kimə
heç vaxt yamanlıq.

***

Oboyan şəhəri,
Kursk vilayəti
Düşmən həmləsindən
yan keçməmişdi.
Məğluba uğrayan
mənfur düşmənlər
Həziylə üz-üzə
heç gəlməmişdi.

***

1943-ün 17 iyununda
Generel leytenant
Susyakov
Əmr etdi ki,
- Aslanov
«Qırmızı Bayrağa»
layiq görülsün.
-Bu bayraq ordunun
şərəf-şöhrəti.



Bu bayraq Həzinin
halal-haqqıdır.
Böyük etimada
layiq görülən
Həzi Odlar oğlu
Azərbaycanlıdır.
Obuxov diz çöküb
bayraq önündə
Həziyə bayrağı
təqdim etdi o.
Həzi bu cəbhədə
hərbi şuranı
Bütün vicdanilə
əmin etdi ki,
İşğalçı düşməni
məhv edəcəyik
Alman faşistlərin
məğlubu üçün
Bütün qüvvələri
sərf edəcəyik.

Miyus cəbhəsini yarıb Aslanov
Matveyev- Kurqanı azad eylədi
Dnepr çayının sahillərində
Dağılmış kəndləri abad eylədi.

Sönmüşdü Minskin çırağı çoxdan
Al səhər yaratdı Vilnusu yoxdan.
Smorqon şəhəri düşmən əlilə
Min bir yara aldı güllədən oxdan.
Onun azadlığı haqda düşünür
Aslanov döyüşə hazırdır çoxdan.
Tankçılar uğurla döyüşə girib
Düşmənin yolunu
kəsdilər onlar.

Şəhərlər, kəndlər də azad olundu.
Döyüşdə fərqlənən şanlı əsgərlər
Fəxri fərmanlarla təltif olundu.
Dvina çayının sahillərində
Yeddi gün ardıcıl döyüşlər oldu.
Qələbə qazanan qəhrəmanların
Ömür yollarında dönüşlər oldu.
Tarixi qələbə oldu Riqada,
Qələbə çaldılar Tukums,
Libavda.
Onun uğurları saysız-hesabsız
Onun uğurları çoxlu saydadı.
Onlardan: - Berezna, Borisov
Vleyka, Minsk
uğrunda döyüşdü
Vuruşdu Həzi.





Döyüşdən sonra da
Uğurlarını
Təşəkkür, təriflər
mükafatlarla
Komandan dəyərin
Verdi Həzinin.
Molodeçno, Vilnus
uğrunda hətta
atıldı döyüşə
atıldı Həzi.
Şaylyay, Yelqava
Riqa uğrunda
Düşməndən qisası
Tez aldı Həzi.
Alman müdafiəsin
Yardığı üçün
Vətənin uğrunda
Ucaldı Həzi.
Qvardiya əsgəri
Çavuş Yermolov
Söyləyir:
- Həzi Aslanov
Bütün əsgərlərə ata qayğısı
Hər kəsə göstərib, insan sayğısı.
Vilnusda, Minskdə



Volqoqradda
Şaulyanda da
Taqonroq, Lvovda,
Belarusyada
Pribaltika, Jitomirdə də
Onun mərdliyindən
danışırdılar.
Əzizimiz, fəxrimiz
Bizim igid Həzimiz.
Səninlə bir döyünür.
Ürəyimiz, qəlbimiz.

Döyüşdə alovdan-oddan
keçdi o,
Vətənə sədaqət
Andı içdi o.
Qanlı müharibənin
alovlarından,
Düşmən üzərindən tankla keçdi o.
Berzina çayından
Lipskə tərəf
Zembin sahəsindən
Beqoml, Mstij
Pleşenisti rayonu
tərəfə keçdi.
Bu yerdə yenə də



Həzi Aslanov
Düşmən məntəqəsin
hədəfə seçdi.
Bir qrup Hitlerçi
dəstəsilə o,
Qorki rayonunda
üz-üzə gəldi.
Həyəcan qorxudan
düşmən çaşaraq,
Silahı ataraq
təslimə gəldi.

Həzinin dəstəsi
həmin o anda
Serquçuq kanalını
Palik çayını
Kəşfiyyat tağımı
Uğurla keçdi.
Yorulub düşsə də
əldən əsgərlər
Belarus meşəsini
düşərgə seçdi.
Burda partizanlar
köməyə gəlib,
Dağılmış körpüdən
xəbər verdilər.

Yollar bağlansa da,
meşə içindən
gizlin yol olduğunu
söyləyirdilər.
Ancaq Aslanovun
ağıllı fikri
hamını bir anlıq
heyran eylədi.
Dedi bu çayda ki,
batan bir tank var.
Birin də batırsaq
çox yaxşı olar.
Çaydan keçmək üçün
bu hamımıza
Asan və sərfəli
yaxşı yol olar.
Beləcə Aslanov
bir yol düzəltdi
Özü də onlarla
irəli getdi.
Döyüş tapşırığı
öz zamanında
cəsarət, inamla
yerinə yetdi.
1944 iyunun 23-də





Aslanovun dəstəsi
neçə-neçə şəhəri
düşməndən azad etdi.
Düşmən tərəfindən
neçə əsgəri
Çinli zabitləri
əsir götürdü.
Uğurlu döyüşdə
igid əsgərlər
Mənfur düşmənlərin
ömrün bitirdi.
«İrəli, irəli yalnız irəli»
Hissi hakim idi
Aslanov üçün.
Böyük şəhərləri
azad etdikcə
Sevinci yerlərə-göyə
sığmırdı.
Yerli əhalinin
insanları da
Həzi Aslanovu
alqışlayırdı.
Naroç çayının da
sahillərində
Düşmənə zərbəni
endirməliydi.

Düşmən nəzarəti
çox olduğundan
Vəziyyət o qədər yüngül deyildi.
Bir gecə ərzində
qəhrəman Həzi
kəndi düşmənlərdən
azad eylədi.
Həyatı təhlükə
anında belə
Həzi heç qorxmadı
ölümdən yenə.
Faşistlər Smorqon
ətrafında da
Böyük qüvvə ilə
toplaşmışdılar.
Düşmən cinahında
ən zəif yeri
Həzinin dəstəsi
yoxlamışdılar.
Odur ki, tankçılar
hücuma keçib,
Düşmənə layiqli
cavab verdilər.
Ölümün üzünə gülərək
onlar





Döyüşdə düşmənə
sinə gərdilər.

***

Aslanovun qətiyyəti
Bəlli idi dostlarına.
Mərmiləri düzmüşdülər
Düşmənlərin yollarına.
Düşmən tankı Aslanovun
Tanklarını vura bilməz.
Qəhrəmanın qarşısında
Düşmən özü dura bilməz.
Hitlerçilər Fin körfəzin
Hərbi Dəniz bazasını
Saxlamağa can atırdı
Niyyətləri boşa çıxdı.
Döyüşlərdə təslim olan
Faşistlərin əsgərləri
Silahını atıb yerə
Ağ bayrağı qaldırırdı,
Diz çökərək yalvarırdı.

***

Estoniyanı, Latviyanı
Azad etdi Litvanı da.

Valdeni də azad etdi
Veverini, Mellni də.
Ölüm-dirim savaşında
Həzi özü qalib gəldi.
Əsgərləri ona ata
Komandirim deyirdilər.
Ölməyi yox,
Öldürməyi əmr edərdi,
Kursk-Orlov döyüşündə
Əsgərlərə mətinliyi öyrədərdi.
Döyüşlərin qızğın vaxtı
Şulin birdən anladı ki,
Anasını tək qoyubdu o Tulada
Xəyalında o ölmüşdü bu davada.
Mən ki, sağam, mən ki, varam,
Gedim, görüm anam harda,
Harda qalıb,
Bəlkə odda-alovda o
Tənha qalıb- yanıb, ölüb.
Getməliyəm deyə Şulin
Komandirə yaxınlaşır.
Komandir də heç Şulinlə
razılaşmır;
Nə icazə, görmürsənmi
davadasan.





Yoxsa unutmusan
xəyaldasan.
Qəti sənə deyirəm ki,
Getmək olmaz
Şulin sənə deyirəm ki,
Sən əsgərsən belə olmaz.
Qəhərlənir Şulin
neynəməli,
Davanın da qanunu var,
Nə olsun ki, davadayam?
Heç oğul da anasını unudar?
Yaxınlaşır Aslanova
Anasının arxasınca
Getmək üçün
xahiş edir.
Həzi isə Şulinə də heç nə demir
fikrə gedir.
Öz doğma, öz əziz, Nuşu anası
Həzinin o anda yadına düşür.
yada düşür.
Son qərarı Həzi verir
sonra deyir:
-İki günlük vaxt verirəm
sənə Şulin.
Ananızın arxasınca
durun gedin.

Qoy ananız sevinsin ki,
sən gəlmisən,
Ürəyini şad etmisən.
sən gəlmisən.
Söylə görüm
qərargaha sən demisən?
Buraxılış vərəqini
götürmüsən?
Gedirsən, get, Şulin, deyə,
Onun sıxdı əllərini.
Kövrəlmişdi,
silib nəmli gözlərini,
Məzuniyyətdə olsan da sən
Hərbi sirrə, qanunlara
sən əməl et.
Bir az tələs, qalma yoldan.
Salam çatdır bizdən ona,
Sağ-salamat anana yet.
Şulin dedi:
- Var ol, mənim komandirim,
mənim fəxrim.
komandirim.
Təşəkkürün bildirərək
Şulin gedir.
Görməyirdi anasını
neçə ildir.





Yollar ona uzaq gəlir,
Palçıq yolda maşın gedir.
Bir anlıq da olsa belə
Şulin dərin fikrə gedir.
Şerpuxova kəndindəki
yolda maşın getmir,
Sürücü də maşın
xarab olduğunu
gördüyündən əsəbləşir.
Şulin isə evlərinə
çox tələsir,
Nə etməli,
Yolda qalıb,
geri dönsün?!
Yoxsa da ki,
Piyadamı yolu getsin?
Son qərardır
getməlidir,
Xəstə qoca anasını
görməlidir.
Nə etməli, fikrə gedir.
Birdən Şulin səs
eşidir.
Bu Həzinin, maşınının -
«Villisinin» səsidir ki?
Bəlkə yuxu, bir xəyaldır,

Bəlkə gözüm önündəki
komandirmi canlanır?
Bəlkə zənnim məni
beləcə aldadır?!
Fikirlərə qərq olmuşdur əsgər Şulin
sanki dərin yuxudadı.
Nə yuxudur, nə xəyaldır,
Elə bu an Həzi maşını
saxladır.
- Əsgər Şulin yaxına gəl
deyə onu çağırır.
Şulin sanki yatmış idi
oyanır.
Əmrə tabe əsgər Şulin
Aslanovun qarşısında dayanır.
Neçə saat bundan öncə
yolda qalan
Şulin uşaq kimi çox sevinir
Komandirim, komandirim,
hardan bildiz
yarı yolda qaldığımı.
Bəlkə tanrı eşitmişdi
alqışımı.
Köməyimə gəldiniz Siz.
Təsadüfən bu yoldan
siz gedirsiniz.





Tez maşina əyləş
deyə səslədiniz.
Var ol mənim komandirim,
Köməyimə yetişdiniz.
Maşın gedir
nə general, nə də Şulin
heç nə demir
Onlar susur, bircə kəlmə söhbət etmir.
Nəhayət ki, maşın
kəndə yetir.
İntizar da burda bitir.
Qohum-qonşu axın-axın
Şulingilin evlərinə
gəlir-gedir.
Hamı deyir Şulinə bax,
generalın maşınıyla
kəndə gəlir.
Bu davanın qızğın vaxtı
anasına baş da çəkir.
Həzi baxır;- Şulin qoca
anasının saçlarına
sığal çəkir.
Həzi baxır- gülümsəyir,
sonra deyir:
Bu gün anan sevindisə
səni bu gün sağ gördüsə

bu ananın gözəl günü
xoş günüdür.
Mən də bu gün
çox şad oldum.
Gördüm sənin ananla da
tanış oldum
Salamat qal tələsirəm
getdim daha.
Həzi gedir, onun belə insanlığı
insanları
heyran edir.
Ona görə hər kəs,
hamı onu sevir
hörmət edir.
İki gündən sonra Şulin
evlərindən geri dönür.
Döyüşlərin birindəsə
yaralanır
Sanki həyat gözlərində
sönür, sönür.
Şulin bu dəm çoxlu-çoxlu
qan itirir.
Ağrı-acı içində o
səs eşidir.
Bu Həzidir, komandirim,
Aslanovdur.





Sağ ol gəldin, komandirim
Mən duyuram,
Mən bilirəm,
mən ölürəm,
dava sona yetməsə də,
bu dünyada mən anamı
tək qoyuram,
mən gedirəm.
Həzi tutub
yaralının
əllərindən
Sonra deyir:
- Yox qoymaram səni vaxtsız
ölməyə,
Yox qoymaram belə cavan
ölməyə.
Həkimlərə əmr eyləyir,
Durun gəlin, siz tələsin köməyə,
Qoymayın ki, Şulin kimi,
Cəsarətli bir əsgəri ölməyə.
Aslanovun əmri ilə
Həkimlərin səyi ilə
o sağalır.
Hərbi xidmət dövründə də
dəfələrlə orden alır.

Bəli, Şulin Aslanovu
ömrü boyu xatırlayır
ömrü boyu alqışlayır.

***

Marşal Belov
Həzi haqqa söyləmişdi;
- Müharibənin çətin, ağır
anlarında
Stalinqrad uğrunda mən
Həzi ilə tanış oldum.
Ölüm-dirim savaşında
döyüşçülər arasında
komandirlər sırasında
hörmət-izzət sahibiydi
Ancaq Həzi qələbəni
görməliydi.
Vaxtsız ölüm sıramızdan
aldı onu -
Vaxtsız ölüm aramızdan
aldı onu.
Ancaq ölüm ağrı-acı gətirdisə
Sevdi onu bütün xalqlar,
bir də doğma yurdu onu.





***

Düşmənləri məğlub nədir?
məhv eylədi
Həzi özü.
Qılıncdan da kəsərliydi
hər söhbəti, hər bir sözü.
Volqa çayı, Don çayının
sahilində
Döyüşlərdə
Dəqiq idi, dürüst idi
hər an hərbi xidmətində
öz sevimli peşəsində
Həzi daim öncül idi.
Düşmən Memel limanında
Libavada
gəmilərə gecə-gündüz
tank gətirir.
Döyüş üçün
meydanlara yerləşdirir.
Düşmənlərin hiyləsini
Həzi bilir.
Tankçı, topçu
təyyarəçi dəstəsini
Döyüşməyə əmr eyləyir.
Təyyarəçi zabitlərə
səmalardan üçüb

bütün hərbi nöqtələri
nəzarətə götürməyi
xahiş edir.
Bu əmr, bu doğma səs
Təyyarəçi Quliyevə
tanış gəlir.
Bu general Həzidirmi?
Mənim doğma həmyerlimmi?
xoş təsadüf
iftixarla,
sevinc ilə
fərəh ilə
könlü qəlbi
döyünürdü.

Həmyerlisi
Həzi ilə öyünürdü.

Sanki onu çoxdan idi
tanıyırdı.
Həzi onun həmyerlisi,
komandiri,
vüqarıydı.
Döyüş üçün tapşırığı
aldı artıq
Uçuş vaxtı olduğundan





Adil hərbi təyyarədə
uçmalıydı.
Təyyarəsi qırıcıydı,
Qırmalıydı düşmənləri.
Nəzarətə götürmüşdü
Döyüş üçün ən yararlı
nöqtələri.
Göy üzündən atəş açdı
Bü zərbədən dözməyərək
düşmən qaçdı.
Adil yenə atəş açdı.
Qurtarmışdı sursatları.
Yerə endi,
Adil yenə döyüşlərdən
Geri döndü.
Düşmənlərin yerlərini komandirə
dəqiq dedi.
Elə bu an diviziya komandiri

Yaxınlaşıb təyyarəçi
Quliyevə:
- getməliyik.
Aslanovun səhhətindən
Biz də xəbər bilməliyik.
Vaxt gözləmir, dayanmayın
getməliyik.

Həmyerlimə nə olub ki,
soruşanda, heç kim ona
cavab vermək istəmədi.
Görən bu nə xəbərdi?
Axı mənə o deyərdi.
Müharibə bitən kimi
Biz geriyə dönəcəyik.
Ana yurdu gözü dolu
görəcəyik.
Qələbəylə biz Vətənə
dönəcəyik.
Söyləmişdi Həzi mənə....
Aman tanrım!
Nə olub ki, heç kim mənə
heç nə demir.
Nəhayət ki, biz hamımız
Gəldik bu gün həmin yerə.
Batdıq bu gün qəm-kədərə.
Yerlər-göylər ağlayırdı,
Təbiət də baş əymişdi
dərd-qəhərə.
Yas tutmuşdu hər kəs burda
igid-nərə.
Ölüm necə amansızdı,
Qəhrəmana yaraşmırdı.
Hamı matəm içindəydi,





Heç kim, heç nə danışmırdı.
Döyüşçülər, generallar
Ağlamaqdan gözləri də
qızarmışdı.
Sanki günəş sönmüş idi,
hava bir az qaralmışdı.
Qara matəm mitinqinin
qapıları açılmışdı.
Qüssə-qəhər, ağrı-acı ağuşunda
ruhumuza qarışmışdı.
Son mənzilə yola düşən
Həzi üçün dostları da ağlayırdı.
Tankdan, topdan, tüfənglərdən,
Atəş - Yaylım atəşləri
Komandirin əmri ilə
açılırdı həmin gün.
Həzi köçür bu dünyadan
adı bizim könlümüzdə
qəlbimizdə yaşayırdı.
İgid ölər, adı qalar
Bəli, Həzi ölsə belə
İgid Vətən oğulunun
Ölməz adı tarixlərin yaddaşında
əbədiyət izi saldı.
Vida anı sona yetdi.

Əsgərləri qəhrəmanın
tabutunu müşayətlə
Öz vətəni, öz yurduna yola saldı.
Döyüşlərdə olan zaman
oğlu Tofiq atasına
yazırdı ki:
-«Əziz atam faşistləri
əzişdirin!
Düşmənləri tez məhv edin!
İnsanları qan-qadanın
caynağından azad edin.
Ata isə cavabında
yazırdı ki;
-Əziz balam, Tofiq balam,
Gül balam,
Məktubunda, yazdıqların
əməl oldu.
Tankımızla əzdiyimiz
düşmənlərin
cəsədləri çürüdükcə
Düşmənlərə zərər oldu.
Yazdıqların çox
düzgündür.
bu fikrimə təməl
oldu.
Qoy bilsinlər özgəsinin





torpağına göz dikilməz.
Dikilsə də heç kim, heç vaxt
beləsini heç də sevməz.
Müharibə uzun çəkməz.
Qələbəni tezliklə
siz eşidərsiz.
Əziz oğlum! Siz tezliklə
sevinərsiz.

***

Ağır döyüşlərdə,
qanlı savaşda,
Dəydi namərd gülləsi
Aslanova da.
35 yaşında, cavan yaşında
Həyatdan köçsə də,
Hərb tarixində
Qızıl hərflərlə
Yazıldı adı.
Hardan biləydi ki,
qəhrəman Həzi
Onun uğuruna
Qıcıqlanan var.
Ona sui-qəsd üçün
Gizlin plan var.
Günün günorta vaxtı

Qəfil atəş açılmış,
Həzinin kürəyini
Düşmən nişan alıbmış.
Demə bu sui-qəsddə
Xain mənfur erməni
Baqramyanın planı,
Xain əməli varmış.
O erməni Baqramyan
Paxıllıqdan Həziyə
          bilərək qəsd eyləmiş.
Demə saf insanlar arasında da,
Xain ermənin dığası varmış.



***

1945-in
24 yanvarında
Namərdin gülləsiylə
Həzi bərk yaralandı.
Sinəsindən axan qan
Qara torpağa axdı.
Həzinin bu sevgisi
Vətənin ana adlı
Torpağına qarışdı.
Uzaqda olsa da o,
Anaya bəyan oldu.
Gecə yarı yuxudan



Tez təlaşla oyandı.
Həzi, Həzi, ay oğlum,
Deyərək çox çağırdı.
Ancaq ananın səsi
Həziyə heç çatmadı.
Bəlkə ana südüylə
Dağ çiçəyi olsaydı,
Həzi tez sağalardı.
Fəqət Həzi Vətəndən
Uzaqda olduğundan
Nə həyat yoldaşıyla,
Nə oğlu Tofiq ilə
Nə də ki, Arif ilə
Son nəfəsdə, son anda
Fəqət vidalaşmadı.
Həzinin övladları
Vaxtsız, atasız qaldı.
Vətən müharibəsindən
Ən böyük zərbə aldı.
Milyonlarla uşaqlar
Gənc analar da qaldı.
Neçə-neçə oğullar
Bu davada-savaşda
Canını qurban verdi.
Yaralı, şikəst olan
Əsgərlər oldu İtkin.

Kim bilir ki, onların
Məzarları hardadır?
Bəlkə daşlar üstündə
Bəlkə qayalardadır.
Elindən- obasından
Çox-çox uzaqlardadır.
Onlar Vətən uğrunda
Vətən torpağındadır.
Vətənpərvər oğullar
Həziyə oxşamağı
Hər zaman arzularmış…

***

Sizə deyim, oxucum,
Həzi qeyri-adi bir
İstedada malikmiş
Onu Ulu yaradan
Anadan olan gündən
Qəhrəman tək yaratmış.

***

Dünyanı od-alov bürüyən zaman
Qanlı müharibə
gətirir dövran,
Atılar döyüşə igid oğullar
Vətənə can deyər





can deyər hər an,
Adını daşıyan küçələrin də,
Adını daşıyan gəmilərin də,
Adını daşıyan
məktəblərin də,
Ünvanı Həzidir
Qəhrəman Həzi.
Adını daşıyan
Metro hər şəhər.
hər axşam insanla
axın-axındır.
Mənzildən məkana
gedən insanın
Yolları uğurlu, yolu yaxındır.

***

Yurdumun paytaxtı
qədim Bakıda
Qəhrəman Həzinin
igid Həzinin
adını daşıyan
Zabitlər Evi
Nə qədər əsgərlər
zabitlər üçün
Müqəddəs yer olub,



səcdəgah olub.
Həzinin adının çəkildiyi an
Bəlkə də ruhuna
tez agah olub.
Mamayev-Kurqandan
gətirilən torpaq
Muzeydə qorunub
saxlanır bu gün
Xatirə lövhəsi olan o yerdə
Anılır, yad olur
qəhrəman hər gün.
Lənkəran, Gəncədə
ev muzeyləri
Əbədi var olub,
diyarımızda,
Bu yurdun özünün
öz gözəlliyi.
Bu yurdun sirli bir
dünyası vardır.
Göylər üzərindən
yerə nur saçan
Tanrı gözəlliyi
o ulduzlardır.
Ulduzlar içində
Həzi ulduzu
Əbədi parlayar



sönməz heç zaman.
Vətən torpağına
qurban gedənlər.
Əbədi var olub Vətən
adıyla
Qəhrəman Həzini
qəlbdən sevənlər.
Qəhrəman adına, igid adına
Müqəddəs pir kimi səcdə edənlər.
Vətənin uğrunda qurban gedənlər
İnsan ürəyində gül tək bitərlər.

***

Hələ uşaq ikən Həzi həyətdə,
Ağaclar əkərmiş, bağ suvararmış.
Bəlkə ağacların çoxu məhv olub
Bir innab ağacı yadigar qalmış.

Həzidən yadigar innab ağacı
Doğma Lənkəranda bar verir yenə.
Qanlar-qadalara şahid təbiət
Çox sinə gəribdir, zaman hökmünə.

İlin hər fəsili, hər ayları da
Açılan yarpaqlar, innab barı da



Bahar bayramı da, qışın qarı da
Həzidən xatirə söyləyir hər an.

Burada dünyaya gəlsə də Həzi,
Dünyaya tanıdıb Azərbaycanı.
Odlar diyarına şərəf gətirib
Torpağın uğrunda tökülən qanı.

Həziyə oxşamaq, istəyən kəslər
Həzini özünə örnək biliblər.
Vətənin uğrunda qurban gedənlər.
Vətənin qədirini hər an biliblər.

Nədəndir bilmirəm vaxtsız köçürlər,
Dünyaya vaxtında gələn kişilər.
Torpaqdan özünə kəfən biçirlər,
Torpağın qədrini bilən kişilər.

Sipərə döndərdi, öz sinəsini
Eşidəndə yurdun haray səsini.
Cəbhədə, səngərdə, son tikəsini
Yoldaşı ilə yarı bölən kişilər.

Əsgər anaların gözü yaş olur,
Könlünə, qəlbinə qəm sirdaş olur.
Vətənə əbədi vətəndaş olur
Vətənin uğrunda ölən kişilər.



Hardasa bir əsgər məzarı varsa,
O məzar səcdəgah, müqəddəs olub.
Bu yol babaların şərəfli yolu
Damarda axan qan bir əsas olub.

Əsli-nəcabəti mərd olanların
Nəsli də cəngavər, igid, mərd olur.
Odlar diyarının qəhrəmanları
Məğrur düşmənlərə yaman dərd olur.

Örnəkdir Həzinin ata yurdu da
Bura bir səcdəgah, ocaq olubdur.
Savaşdan yollanan üçkünc məktub da
Yazılan yazılar bir az solubdur.

Ata yurdundakı ev muzeyinə
İllərdir insanlar axışıb gəlir.
Bəzən elə olur kövrək analar
Gözləri yaş olur, könlü kövrəlir.

Həzinin yoludur şanlı hərb yolu
Bu yolda ölənlər-itənlər olub.
Vətənin uğrunda qurban gedənlər
Vətən torpağında bitənlər olub.

***

Vətənə məhəbbəti
Düşmənlərə nifrəti.
Qat-qat artır Həzinin
Döyüşdəki şöhrəti.

Döyüşə səsləyibdir,
Bütün xalqı milləti.
Yayılıb yer üzünə
Ləyaqəti hörməti.

Aslanovla fəxr edir
Bütün qardaş ölkələr.
Qəhrəmanı sevirlər
Xalqımızla bərabər.

Lənkəran şəhərində,
Hər eldə, hər obada,
Kənddəki ağsaqqallar,
Ağbirçək nənələr də,
Həm gənclər, körpələr də,
Həziylə fəxr edirlər.

Sanki göylər üzündən
Günəş də nurun saçır.
Təbiətin özü də
Həzidən söhbət açır.





***

Döyüşdə şir olan,
Aslan olanlar.
Düşmən üzərində
Zəfər çaldılar.
Zalım düşmənlərdən
İgid oğullar
Döyüş meydanında
Qisas aldılar.
Ukrayna çölləri,
Kurqan düzləri
Od tutub yananda
Həzi bir anlıq
Doğma Vətənini
Yada salırdı.
Sanki Azərbaycan,
Doğma Lənkəran,
Dayanıb dururdu
Gözü önündə.
Nə çöllər yanmasın,
Nə də ki, düzlər,
Qaranlıq yox olsun,
Gəlsin gündüzlər.

Stalinqrad uğrunda
Həzi alov içində.

Vuruşur düşmən ilə
Vətənin keşiyində.
Gərgin-qızğın döyüşlər
Düşməni mat qoyubdur.
Ac-yalavac düşmənlər
Öz canından doyubdur.

Həzidir xalqının qəhrəman oğlu
Yurduna zəfərlər yetirdi özü.
Şanlı Qələbəni, şanlı tarixi
Qəhrəman adıyla gətirdi özü.

Bəlkə ona görə
mələk analar,
Dünyaya gətirib
məğrur oğullar.
Düşmənin gözünə
ox kimi girən
Düşmənə dərd olar
igid oğullar.
Öyünüb fəxr edək
qürurla deyək
Yaşasın, var olsun
cəsur oğullar.
Zirehli tanklardan
açılan atəş





Düşməni alnından
vurub, məhv edər.
Bir də göz dikərsə torpağımıza
Bax onda düşmənlər böyük
səhv edər.

Ellər Vətən oğlundan
İftixarla söyləmiş.
Onun döyüş yolunu
Örnək seçib özünə,
Neçə-neçə oğul da
Həziyə çox oxşadı,
Analar da oğlunu
Döyüşlərə yolladı.

Həzinin uğurları
Xalqımın zəfəridir.
Milyonların önündə
Şöhrəti-şərəfidir.

Ay Həzidən danışır,
Ulduzlar da yarışır.
Xoş xəbərlər uğurlar
Eldən-elə dolaşır.

Bütün qəzet -jurnallar,
Yaddaşlarda qalacaq,
Yurdumun igid oğlu
Həzidən yazır ancaq.

1943-ün
Ayazlı qış günündə
Həzi Aslanov aldı
İgid qəhrəman adın.

Orden, medal, təltiflər
Təşəkkürlər, təltiflər.
Həzinin ünvanına
Mətbuatda yazılmış.
Bu hünərvər oğulu
Analar alqışlamış.

Kimin oğlu olubsa,
Adını Həzi qoyur.
Həzi kimi oğullar,
Vətənini qoruyur.

Alovdan qorxmayıb,
Oddan qorxmayıb,
Vətəni yanmağa
Qoymadın Həzi!





Hərbin sirlərindən
ilham alaraq,
Vətən sevgisindən
doymadın Həzi!
Döyüş meydanında
məşəldi adın.
Bağrını yaranda
düşmənin yadın.
Torpağın uğrunda
haqqa ucaldın.
Tanrı dərgahında
ucadır adın.
Kam ala bilmədi,
mənfur düşmənlər.
Döyüşdə qələbə
çaldı ərənlər.
Döyüş meydanında,
hərb meydanında
Düşməni susdurdu,
tanklar, tüfənglər.
İgidliyinə görə
Suvorov ordenilə
Təltif olunur Həzi.
Üç dəfə Qızıl Bayraq,
Aleksandr Nevski
Orden, medallallarına

Layiq görülür Həzi.
Filmoqrafiya sahəsi;
-Həzidən bəhs eyləyir.
«General Həzi» filmi
Vətən uğru savaşda
Düşməni məğlub edən
Qəhrəman Aslanovun
həyatından bəhs edir
«General» filmi ilə
«Dəmir atlı cəngavər».
Filmlərin özü də
Aslanovdan bəhs edir.
«Sizi dünyalar qədər
sevirəm» dedi Həzi.
Vətənimin uğrunda
Öz canından keçməyə
Gedirəm dedi Həzi!
«Estafet» filmi hətta
Gənclərə bir nümunə
Qəhrəman adını tarix
Yazdı şanlı ömrünə.
«402» atıcı dviziyası
Həzinin
Əmri ilə hər zaman
«irəliyə gedirdi.





“416” isə düşməni
yer üzündən
məhv eyləyib silirdi.
«223» öndədir,
Döyüşdən qalib çıxan
«271» idi.

Atıcı dviziyalar
komandiri
Aslanov
Hər bir əsgər, zabitin
komandiri,
həm də ki,
böyük sərkərdəsiydi.

***

Sən saydığın say deyirlər,
Fələk nələr, nələr saydı.
Qəhrəmanın ölümü də
Dünya üçün bir haraydı.

Yas saxladı.
ellər özü-özündə
İgid Həzi uca dağdır
xalqımızın gözündə.

Əbədiyyət nəğməsiydi,
şairlərin sözündə
Səməd Vurğun, Məmməd Araz,
Mir Cəlal,
Qəhrəmana şeir, dastan
həsr etdilər.
Neçə-neçə dostları
baş əydilər!
Məzarına, daşına.
Onun ömür, həyat yolu
Əbədilik həkk olundu
Vətənimin daşına.



***

Döyüşlərin birində
Həzi yaralanmışdı.
Onun hərbi mundiri
Al-qana boyanmışdı.
Döyüş dostları onu
Hospitala aparmış.
Çoxlu qan itirmişdi.
Qan lazımdı Həziyə
Axın-axın dostları
Könüllü qan verənlər
Hospitala gəlmişdi.
Onun ən yaxın dostu,



Gürcü millәti olan
Georgi adlı bir әsgәr
Öz qanını vermişdi.
Onun Qanı Həziyə
Vaxtında yetişmişdi.
Ölümün caynağından
Əcəli ləngitmişdi.
Gözlərini açanda
Yanında onu gördü.

Həzi soruşur ondan
Sənə nə olub dostum,
Sən niyə buradasan?
Yaralılar içində
Sən də palatadasan?
Mən yaralı deyiləm
Sənə qan verdim, qardaş.
Dedim sənin əvəzi
Ölümə gedim qardaş.
Sağ ol, əziz döyüşçüm,
Sağ ol, əziz qardaşım.
Əslən Qafqazdan olan
Mənim gürcü qardaşım.
Bax belə acı günlər
Artıq arxada qaldı.
Qəhrəman, igid Həzi

Çox keçmədi sağaldı.
Yenidən döyüşlərə
İrəliyə atıldı.

Həzi Vətən uğrunda
Canını fəda etdi.
Bütün xalqlar, millətlər
Onu ürəkdən sevdi.

Haqqında hekayələr
Romanlar da yazıldı.
Döyüş səhnələrindən
Filmlər hazırlandı.
Bu kino-filmlərə
Hər yerdə baxılırdı.
Döyüşçü gürcü dostu
Fərəhlə danışırdı:
- Bir gün evdə oturub,
Həmin filmə baxırdım.
Xəyalən o, illərdən
Dostları axtarırdım.
Birdən həmin filmdə
Mən özümü tanıdım.
Bəlkə sevincdən idi
Döşəməyə yıxıldım.
Həyat yoldaşım, oğlum
Özləri həkim idi.





Hər ikisi o, anda
Özlərini itirdi.
Telefona əl atıb
Tibbi yardım çağırdı.
Nəvələrim, qızlarım
Həzi haqda bu filmə
Çox maraqla baxırdı.
Həyat necə maraqlı,
Necə mənalı olur.
İnsan sevinəndə də
Könlü yaralı olur.
Müharibə illəri
Gözüm önündə durdu.
Tanklar atəş açırdı.
Dağıdırdı, vururdu.
Sanki evim bir anlıq
Döyüş meydanı oldu.
O, illərin, o, çağın,
Həmin o, anı oldu.
Filmi seyr eylədikcə
Dostlarımı gördüm mən.

Ölənləri yad edib.
Ömrü yarı böldüm mən.
İllərin ağrısını,
Acısını daşıyan,

Həzinin döyüş dostu
Gürcü idi danışan.

***

Xavər xanım tənha qaldı.
Oğlu Tofiq, bir də Arif
çox ağıllı
övladlardı.
Bəlkə ana uşaqlardan
xəlvət yerdə ağlayardı.
O, könlündə Həzi üçün
yas saxlardı.
Dönüb ötən illərə o
Qəhrəmanın adı ilə ucalardı.
Bax beləcə Xavər xanım
dərd çəkməkdən
qocalırdı.
Ömür keçdi, gün də keçdi,
Zaman, tarix yaxşıları
saydı-seçdi.
Həzidən örnək alanlar
Vətən uğrunda and içdi.
« Ot kökü üstündə
bitər» deyiblər.
«Yaxşılar murada
yetər» deyiblər.





İgidlər Vətənin yaman günündə
Vətən harayına gedər deyiblər.
Babanın adını daşıyan Həzi
Könlündə yurd saldı, Vətənin səsi
Qəhrəman nəsilin davamçısıydı
Düşmən çəpəridir oğul nəvəsi.
Həzi babasının adına layiq
Həzi babasının yolunu seçdi.
Qafqaz qartalıydı Həzi Aslanov
Nəvə də bu yolu bir örnək seçdi.
Hələ uşaq ikən hərbi mundiri
Həzi babasının əynində gördü.
Zərli paqonları qızıl medalı
Həzi babasının şəklində gördü.
General leytenant Fərəc Ağayev
Əliağa Şıxlınski, Mehmandarov da
Qəhrəman Həzinin dostu olmuşdu.
Günlər də, aylar da keçsə də belə
Bu dostluq əbədi körpü olmuşdu.
Bu dostluq əbədi dostluqdan
doğdu.
Bu dostluq Vətənin yolunda oldu
Bu dostluq Vətənin uğrunda oldu.
Canında, qanında, qolunda oldu.



***

Düşmənlə üz-üzə gələndə Həzi,
Cinahdan zərbəni sərrast endirdi.
Ölümdən qorxmayıb Vətən oğulu
Vətəni canından artıq sevirdi.

Düşmən mühasirəsin qırıb-dağıdan
Həzi qısasını aldı yağıdan.
Vətənə anamsan, anam deyirdi
Canını Vətənə qurban eylədi.

***

Həzinin döyüş dostu
Poqarenko deyir ki,
-Düşmən atəşi altda
Mərmi, mina qəlpəsi
Torpağı paralayır.
Göydən yağan güllələr
Əsgəri yaralayır.
Qorxu bilməyən Həzi
Ölümdən də qorxmayır.
Tankların önündə o
Açıq maşın üstündə
Müşahidə aparır.
Düşmən mühasirəsini
Məharətlə o yarır.



İstedadlı sərkərdə
Ən ağır döyüşlərdən
Düşmənə qalib gəlib
Qələbəylə qayıdır.

***

Şuydinin xatirəsi
Maraq ilə doludur.
- Deyir döyüşdən sonra
Meşədə dincəlirdik.
Kimi məktub yazırdı.
Kimisi də yol boyu
Dərin səngər qazırdı.
Kimi öz evlərini
Durub xatırlayırdı.
Kimi də çox gülməli
Lətifə xoşlayırdı.
Ona görə mən orda
Lətifələr söyləyib
Hamını güldürürdüm.
Elə bil ki, Hitlerin
Atasın öldürürdüm.
Özüm onlarla birgə
Danışırdım, gülürdüm.
Elə bu an Aslanov
Tankın yanında durdu.

Yaman qorxuya düşdüm.
Sanki qanım qurudu.
Aslanov yaxınlaşıb
Dedi: - Afərin Mişa
Sənin deyib gülməyin
Yorğunluğu aparır.
Ağır döyüşdən sonra
Deyib-gülməyin özü
Ağrı-acı çıxarır.
Müharibə bizləri
Qaş-qabaqlı sərt edib.

Döyüşçü dostların da
Gülüb-danışmalıdır.
Sənin kimi maraqlı
İnsanların özü də
Burada olmalıdır.
Müharibə qurtarar,
Sən də artist olarsan.
Sənət uğurlarında
Bizi yada salarsan.
Müharibə qurtardı,
Aslanovun sözləri
Yaddaşımda yaşadı.
Ürəyimdə ən böyük
Arzularım oyandı.





Cəbhədən qayıdanda
Sirkdə oyunbaz oldum.
İnsanlar arasında
Nə çox, nə də az oldum.
Döyüşdə əsgər idim
Sənətdə artist oldum.
İlləri xatırlayıb
Qocalıb yaşa doldum.
Deyirəm ki, nə yaxşı
Mən də cavan vaxtımda
Aslanova ən sadiq
Sıravi əsgər oldum.

***

Rodinov yazırdı ki,
- Həzi mənim ən yaxın
Dostum, silahdaşımdır.
Mənim həm komandirim,
Sevimli qardaşımdır.
Həzi əsl qəhrəman
Məğrur döyüşçü idi.
Vətəninə, xalqına
Şərəf, uğur gətirən
Qəhrəman tankçı idi.
Döyüşlərdə əsgərlər
Aslanovçu idilər.

Bu soyadla fəxr edib
Onlar sevinirdilər.
Ona görə döyüşə
Əzmlə gedirdilər.

***

Dənizlərdə üzən tanker
Adını daşıyır Həzinin
Xalqımızı sevindirir
İdeyası Mübarizin.
«Palmalı»nın şirkətinin
Bu vətəndaş borcu oldu.
Tanrı onu alqışladı
Bu sevgiylə ovcu doldu.
Xeyriyyəçi, xeyirxahlıq
Mübarizə nəsib oldu.
Tanrı ona dayaq olsun
Bu müqəddəs, nəcib yoldu.
May ayının 9-da
Qələbənin hər anında

Yad edilir,
Yada düşür,
İgid Həzi.







***

Heykəli önündə
dayanan zaman
Hər kəs baş əyərək
ehtiram edir.
Vətənin yolunda
həlak olub o,
Yadelli düşməni
adı ram edir.
Hər eldə, obada
Həzi adını
Hörmətlə yad edib
xatırlayırlar.
Doğma yurdumuzda
igid Həzini
Fərəhlə, qürurla
yada salırlar.

***

Həzinin vəfatından
47 il sonra
tədqiqatçı-jurnalist
Musa Bağırov kimi
qeyrətli vətən oğlu
Üzərinə ən çətin
Şərəfli iş götürür.

Məqsədi də bu idi:
Həzinin halal haqqın
bərpa etməlidir o.
Bunun üçün dəyərli
Ziyalımız Bağırov
Uzaq məsafələri
Qətiyyətlə, inamla
Özü qət etməlidir.
Rusiyanın paytaxtı
Moskvaya getməlidir.
Uzun elmi tədqiqat
Axtarışa başlayır.
Süni əngəllər onu
Hər addım qarşılayır.
Təkzibedilməz sənəd
Faktları toplayır o.
Ondan sonra bu çətin
işə də başlayır o.
Həzinin döyüş yolu
Bağırovun qəlbində,
Səlnaməyə çevrilir.
Vətənin mərd oğulu.
Həzi ilə fəxr edir.
Ömrünün 20 ilin
Axtarışa sərf edir.





Həzinin obrazını
Öz qəlbində yaradır.
Qeyri-adi qəhrəman
Həzi haqda düşünür.
Həzi keçən döyüşdən
Sanki o, da döyüşür.
Həzinin dostlarından
Çoxlu sənəd toplayır.
Mixail Qorbaçova
Sənədləri yollayır.
1991- iyunun 18-i
Fərman verilməliydi
Bu sevinci, bu hissi
Bağırov bilməliydi.
Saniyələr, saatlar
Üzürdü Bağırovu.
Artıq 3 gün keçsə də
Hələ xəbər yox idi.
Narahatlıq qəlbində
Ağır yük tək, çox idi.
Yorulub, təngə gəlib
Naümid evə gəlib.
Uzanıb çarpayıda
Dərin yuxuya gedib.
Evdən ona zəng edib
Gözlənilən fərmanı -

Şad xəbəri deyiblər.
Bağırova çox şağ ol
Təşəkkür də ediblər.
Bax bu xəbər Musaya,
Böyük mükafat oldu.
Axtarışı uğurlu,
Böyük səadət oldu.
Dan yeri söküləndə,
Günəş nur ələyəndə.
Musa təşəkkürünü
Baklanova deyəndə
Təəccübün gizlətməyib
Bağırova o, deyir;
-Bu ulduzu Aslanov
Qazansa da, il keçib,
Tax yaxana bir həftə
Moskvada gəz, Musa.
Düşmənlərin başını
İradənlə əz, Musa.
Baqramyanlar bilsin ki,
Həzi halal haqqını,
Həzi igid adını
Sənin səyin, sayəndə
Gec də olsa o, aldı.
Tarixin yaddaşında
2 qızıl ulduzla





Qəhrəman tək o, qaldı.
Azərbaycan xalqının
Hünər səlnaməsində
Qəhrəman tək ucaldı.
Həmin anda Musanın
Sanki ömrü uzandı.
Qorbaçov üzərində
Qələbəni o, çaldı.
Bu xoş xəbər ellərə
Obalara səs saldı.
1991 iyunun 21-i
47 il sonra
Tank qoşun generalı
Həzi Əhəd oğulu
Sovet İttifaqının
Qəhrəmanlıq adını
İkinci dəfə aldı.
İkinci qızıl ulduz
Vətəninə verildi.
Bu şərəfli adları
tankçılar alqışladı,
xalqımız alqışladı.

***

Musa Bağırov yazdı
"Sərkərdənin taleyi",

«Generalın yolu»nu.
Kitab tez bir müddətdə
Marağa səbəb oldu.
Həzini sevənlərdən
Sifarişlər gəlirdi.
Kitabı oxuyanlar
Ürəkdən sevinirdi.
Bu kitab rus dilində
Tirajlarla çap oldu.
Sevənlərin qəlbinə
Həzi yenidən doldu.
Şanlı tank briqadasına,
Stalinqrad korpusuna,
Moskvada yerləşən
Veteran təşkilatına,
Döyüşçü dostlarına
Kitab hədiyyə oldu.
Kitabı oxuyanlar
Musa Bağırov kimi
Dəyərli ziyalıya
Dərin təşəkkür edir.
Qvardiya dostları
Bağırova Bakıya
Tez-tez zəng eyləyirlər.
Həzidən xoş xatirə
Təəssürat söyləyirlər.





Yeni faktlar, sənədlər
Məktublar yollayırlar.
Bütün dostlar adından
Onu salamlayırlar.
Dəqiq, dolğun axtarış
Sayəsində Bağırov
«Generalın yolu»nu,
Belə yazıb-yaratmış.
Düşmən üzərində o,
Böyük qələbə çalmış.
Müharibə mövzulu
Elmi- axtarışlarla
Tarixi kitab yazmış.
Həzinin döyüş dostu
Akademik Bünyadov
Səmimi sözlər demiş.
Vaxt gələcək tədqiqat
Əsərlərin üstündə
Elmi işlər olacaq.
Tükənməyən bu sevgi
Həzinin ünvanına
Günəş kimi saçacaq.
Bu sevgi tükənməzdir,
İnadlıdır dönməzdir.
Aylar, illər keçsə də,
Qəhrəmanın adının,

Alınmasına nail
Olur Musa Bağırov.
Elləri-obaları
Qarış-qarış gəzdi o.
Qorbaçovun sözünü
Kəsəriylə əzdi o.
Vətən müharibəsində
Təltifləri çox idi.
Həzinin sinəsində
Orden, medallar vardı.
Tarixi muzeylərdə
Həzinin adı vardı.
Şəxsi arxivlərinə
Qonaqlar da baxardı.
Belarusda, Litvada
Xatirə albomunda
Təəssüratlar xoş sözlər
Əvvəlində, sonunda
1991-də
Həzinin halal haqqı
«Lenin» ordeni ilə
«Qızıl ulduz» medalı
Moskvadan Bağırov
Bakıya gətirmişdi.
Çoxları qınayırdı ki,
Dağılıb SSRİ,





Gəl heç kimə göstərmə
Bu medalı, ordeni.
İnadından dönməyən
Musa Bağırov bir gün
Qəbuluna gəlmişdi
Prezident Elçibəyin.
Dinləyib Bağırovu
Qətiyyətlə dedi ki,
Ruslar üçün vuruşan
Gərək deyil ki, bizə
Bu sözlər Bağırov üçün
Zərbədən ağır oldu.
Uşaq kimi kövrəldi.
Gözləri yaşla doldu.
Sual dolu baxışla
Elçibəyə baxdı o.
Vətən müharibəsində
700 min döyüşçü
Vuruşubsa döyüşdə,
Bəs onları Siz deyin.
Unutmaq nə deməkdir?
Onları unutmaq özü
Ən böyük cinayətdir.
Xalqa dəyər verməmək
Ən böyük fəlakətdir.
Unutmaq olmaz onu.

Zaman-zaman yurdumuz
Tarixi məmləkətdir.
Həzi kimi igidlər
Hər bir kəsə örnəkdir.
Rühdan düşməyən Musa
İnadından dönmədi.
Səbrlə, təmkin ilə
İllər ilə gözlədi.
Nəhayət ki, gün gəldi
Tanrı xalqımız üçün
Dahi, böyük sərkərdə
Ulu Öndər, mərd insan
Əliyevi göndərdi.
Elə həmin anda da
Musa Bağırov onun
Qəbuluna gəlmişdi.
İstəyin, arzusunu
Əliyevə demişdi.
Öndər Aslanov haqda
İftixarla, fərəhlə
Xoş sözlər söyləmişdi;
-Həzi millətimizin
Başının ucalığı,
O, bizim fəxrimizdir.
O, bizim cəsur, igid
Qəhrəman Həzimizdir.





Onun ömür yolları
Gənclərə örnək olsun.
Sizin kimi dəyərli
Ziyalılar var olsun.
Bu sözləri eşidən
Bağırov çox sevinir.
Minnətdarlıq hissiylə
-Var olun, Prezidentim
Məni qəbul etdiniz.
İnanın ki, Siz mənim
Könlümü şad etdiniz.
Bəli! Əziz oxucum,
Ulu Öndər Əliyev
Tarixi keçmişlərə,
Cəsur, mərd igidlərə,
Hər zaman önəm vermiş.
Xalqımızı, milləti
Canından artıq sevmiş.
Ona görə xalqımız
Ona xilaskar demiş.
Heydər ata deyərək
Onu ürəkdən sevmiş.

***

Dəfələrlə Bağırov,
Moskvada yerləşən
Stalinqrad korpusunun

Veteran birliyində,
Zirehli tank Qoşunlar
Akademiyasında da,
Həzi haqda tədbirdə
Çıxışlarda olub o.
Həzinin silahdaşı
Marşal, general, alim
Ziyalı insanların
İstəyi və rəyilə
Stalinqrad cəbhəsi,
Rəyasət heyətinə,
Bağırovu «Fəxri üzv»
«Fəxri döyüşçü» kimi
Üzvlüyə seçirlər.
Hal-hazırda Rusiyada
Hərbi Akademiyada
Həzi haqqında kitab
Dərslik kimi işlənir.
Həzi qəhrəman kimi
Sərkərdə tək sevilir.

***

General-mayor Popov,
Marşal Yermelenko da,
Akademik Samsonov
Deyirlər ki, Aslanov





-Hamımızın fəxridir.
Azərbaycan xaqına
Eşq olsun, halal olsun
Həzi kimi qəhrəman
oğulları yetirir.
Xalqa baş ucalığı,
Xalqa uğur gətirir.

***

Aslanovçu veteranlar,
Döyüşdən sağ qalanlar,
O illəri, döyüşləri,
Xatirdə saxlayanlar,
Tez-tez gəlir Odlar yurdu
Azərbaycan ölkəsinə.

Qonaqpərvər xalqımızın
övladları
Gülərüzlə, duz-çörəklə
Qarşılayıb,
Qonaqlarla
Əklil qoyub,
Baş əydilər,
Aslanovun məzarına.
Bu qonaqlar arasında
Generallar, admirallar,

Marşallar var.
Vətənpərvər insanlar var.
Qürur ilə, iftixarla
Söz açırlar
Aslanovdan,
Qəhrəmandan,
Odlar yurdu,
Od oğlundan.

***

Tofiq də, Arif də atası kimi
Hər kəsə dost deyib,
qardaş dedilər.
Onların atası Vətən yolunda,
Onlar da Vətəni qəlbdən sevdilər.
Atalı günlərin xoşbəxt anları
Tofiqin qəlbinə, ruhuna hopdu.
Ana o anları yada salardı
Balaca Arifin 3 yaşı vardı.
Xidmətdən evinə dönəndə Həzi
Övladlar onunla fəxr edərdilər.
Arifə, Tofiqə rəngli karandaş
Alanda uşaqlar sevinərdilər.
Oleska kəndində yaşadı onlar
Uşaqlar topladı özünə dostlar.
Səbirli- təmkinli Xavər xanımsa,





Mənzili səliqə-səhmana saldı.
Nə qədər mehriban səmimiydilər.
Həzinin evində bərəkət vardı.
Onun oğulları Ariflə, Tofiq
Həziyə, Xavərə dövlətdi-vardı.

Oxuyub-yazmağı sevən oğullar
Hərbin sirlərini öyrənirdilər.
Xidmətdə olanda atalarının
Yanına gedəndə sevinirdilər.

Məktub yazardılar nənələrinə
Şəkil qoyardılar zərfin içinə.
Tofiq də, Arif də Nuşu nənənin
Belə yol tapmışdı incə qəlbinə.

Atalı-analı xoşbəxt uşaqlar
Bəxtəvər- bəxtiyar yaşayardılar.
Hərbi hissələrə atalarıyla
Getməyi ürəkdən xoşlayırdılar.

Xavərin yazdığı gündəliyində
İllərin ağrısı-acısı vardı.
Dönüb o, illərə nəzər salanda
Həzini bax belə xatırlayardı…



Sübh tezdən bir əsgər qapını döyüb,
Bağlı bir zərfi vermiş Həziyə.
Oxuyub, tələsmiş, tələsmiş o an,
Qaçaraq getmişdi hərbi hissəyə.

Bu gediş alovdan-oddan başladı,
Elə həmin gün də dava başladı.
Arifi, Tofiqi bir də Xavəri
Qatarla Vətənə-evə yolladı.

Aylarla yollarda qalmışdı onlar.
Gah yollar bağlanır,
gah getmir qatar.
Uşaqlar anadan tez-tez
soruşur,
Anacan, mənzilə qatar
tez çatar?
Düşmən təyyarəsi, göylərdən yerə,
Yağış tək yağdırdı, güllə-baranı.
Ana təlaş dolu, fikir içində,
Çata biləcəkmi doğma elinə?

Nə qədər əziyyət -əzab çəkdi o,
Könlündə min dərdi, qəmi əkdi o.
Ata döyüşdədir övladlarının
Qayğısın kədərlə, qəmlə çəkdi o.



Beləcə ayrıldı onların yolu,
Beləcə olarmış sevginin sonu.
Bu alın yazısı, tale oyunu
Xavəri beləcə sınağa çəkdi.

İllərin ağrısı canında
qaldı.
Dünya gözlərində yaman
qaraldı.
Qönçə yanaqları soldu-saraldı,
Könlündə Həzinin adı ucaldı.
Xatirələr qanadında
Dönüb baxdı o, illərə.
Nələr qalmışdı yadında
Sönüb baxdı o, illərə.

Həzinin yadigar məktublarını
Saxladı köksünün başında Xavər.
Taleyin ən böyük zərbəsin aldı.
Ömrünün cavanlıq yaşında Xavər.

Könlündən keçəni özü-özünə
Suallar verirdi, cavab almırdı.
Uşaqlar ananın gözünə baxıb,
Nə üçün anamız heç ağlamırdı?

Könlündə min bir dərd,
qəmlər var idi,
Nə qədər əziyyət, əzab çəkərdi.
Həzidən xoş sözlər özü söylərdi,
O, ötən anlara qəlbən dönərdi.

Gözünün yaşını gizləyən Xavər,
Həzinin yolunu gözləyən Xavər,
Artıq tənhalığa dözməyən Xavər,
Dərdinə söykənib dərd yaşayırdı.

Ağıllı-savadlı övladlarıyla,
Ananın öyünmək haqqı var idi.
Arifi, Tofiqi dünyalar idi,
Həzinin xanımı mərd yaşayırdı.

Qan qoxan davanın ağrılarını,
Yaşatdı könlündə, yaşatdı Xavər.
Nəvəsi adını daşıyır onun,
Yenidən başlayan həyata Xavər.

***

Hər dəfə Dağüstü parka
gedəndə
Heykəlin önündə dayandı Xavər.
Elə bil heykəl də dilə gəlmişdi
Ağlama, ağlama, amandı Xavər!





Torpaq da soyuqdur,
daş ondan soyuq.
İlləri, ayları arxada qoyduq.
Vətən sevgisilə Vətəni sevdin
Vətən sevgisisən sən özün Həzi!

***

Nə yaxşı ki, bu dünyaya
İgid oğul, ərənləri,
Vətənini sevənləri
Gətiribdi analar.

Yaman gündən ötrü,
Çətin gündən ötrü
Oğulları bu dünyaya
Yetiribdi analar.

Həzi kimi oğulların
Anaları var olsun!
Dünya xain düşmənlərin
Başlarına dar olsun!

Vətənin uğrunda
qəhrəman Həzi
Fəda eləyibdi
öz cavan ömrün.

Şücaət göstərib,
mərdlik göstərib,
Cəngavər, mərd, məğrur
qəhrəman Həzi

***

Dünyaya gəlmişdin soyuq
qış günü,
Vətənə həsr etdin bütün ömrünü.
Odlar diyarından od götürdün sən,
Canını Vətənə qurban eyləyib,
Ellərə xoş müjdə yetirdin Həzi!
Ellər igidisən sən özün Həzi!
Ellər qəhrəmanı Qəhrəman Həzi!

Vətəndən uzaqda, qərib ellərdə
Adına ehtiram olunur, Həzi!
Heykəlin önündə çiçəklər açır,
Xatirən əbədi qorunur Həzi!
Ellər öz oğlunu xatırlayanda
Beləcə düşünür həmin o, anda.
-Sən dünən, bu gün də
məğrursan Həzi!
Şərəfsən, şöhrətsən, qürursan Həzi!
Sən uca dağ kimi əzəmətlisən
Gözümüz önündə durursan Həzi!





Qafqaz dağlarından
parlayan Günəş.
Sən Ana yurdumun
Al səhərisən.
Şanlı Qələbənin
xoş müjdəsisən
Sən Odlar yurdunun
qəhrəman oğlu
Qəhrəman Həzisən!
Qəhrəman Həzi!

*21 mart 2015.*
*Bakı şəhəri*
*Müdafiə Nazirliyi,*
*Həzi Aslanov adına*
*Mərkəzi Zabitlər Evi.*

Korrektor: **Qubaxanım Bayramova**
Dizayner: **Samirə Muradova**
Operator: **Aynur Çingizqızı**

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

**Замина Хыналы**

# ГЕРОЙ АЗИ

*(поема)*
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Çapa imzalanmışdır: 27.05.2015.
Kağız formatı: 60x84 1/16. Həcmi: 7,75 ç.v.
Sifariş 7. Tiraj 500.
«Təknur» MMC-nin mətbəəsində
hazır elektronvariantdan çap olunmuşdur.
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya
və qrammatikasına görə heç bir cavabdehlik daşımır.
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
**Mətbəənin direktoru:** Ələkbər Məmmədov
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
**Telefon**: 408-86-23; 050-222-40-25.